# PAXILLIQ MƏNƏVİ EYBƏCƏRLİKDİR

Qəlbi pak və ülvi hisslərlə dolu olan adamlarla münasibətdə olmaq, söhbət etmək insanı mənəvi cəhətdən ucaldır, daxilən saflaşdırır. Həyatda xoş, nəcib arzularla yaşayanlar həmişə bu cür adamlarla müsahib olmağa çalışır, onlardan çox şey görüb-götürürlər. İllər keçir, el arasında bilik və bacarıqları, namuslu əməkləri ilə ucalan qəlb sahiblərinin hörmət və nüfuzu get-gedə artır, ömür yollarında çoxlarının xeyirxahına, məsləhətçisinə çevrilirlər.

Ağsaqqal sözünə hamının ehtiyacı var. Xalqımız hər saqqalı ağarmışa ağsaqqal deməyibdir. Ağsaqqal o şəxsdir ki, ağlı, düşüncəsi, dərrakəsi və digər fitri xüsusiyyətləri ilə yaşadığı kütlə içərisində başqalarından seçilir, şəxsiyyətində ehtiva olunan bütün yaxşı cəhətlərinə görə hamının hörmət və etimadını qazanır. İlk növbədə ədalətliliyinə, xeyirxahlığına görə cəmiyyətin inam və ümid mənbəyinə çevrilir. Xalqın istər şadlıq, istərsə də qəmli, kədərli günlərində ağsaqqalın sözü, məsləhəti aparıcı qüvvə olur.

Lakin söhbətimizin mövzusu başqa səmtədir. Təəssüfləndirici hal olsa da, etiraf etməliyik ki, müasir cəmiyyətimizdə paxıl, mənəvi cəhətdən eybəcər adamlar da yaşayır. Beləlöri həmişə yaşadıqları cəmiyyətə ləkə olublar. Fikrimizcə, paxıllığın meydana gəlmə səbəbləri, cəmiyyətə yetirdiyi ziyanlar, insanlığa gətirdiyi bəlalar, bu mənfi əməlin islahı, aradan qaldırılması yolları barədə söz açmaq, fikir mübadiləsi aparmaq olduqca vacibdir. Çünki paxılların rəzil əməlləri insanda ikrah hissi doğurur. Halal zəhməti ilə həyatda ucalanların müvəffəqiyyətləri paxılların qəm və kədərinə səbəb olur, onları daxilən çürüdür. Birinin şadlığı, sevinci paxılın yasına çevrilir.

Şər və bədxahlığın əlaməti olan paxıllıq əvvəlcə nəfsdə hiss kimi meydana çıxır, ona qarşı mübarizə əzmi olmadıqda insan xasiyyətində dərin kök salır. Görkəmli mütəfəkkirimiz A. Bakıxanov bu barədə vaxtilə yazmışdı: "Doğrudan da, paxıllıq odundan yandırıcı od hələ görünməmişdir. Paxıl heç bir zaman rahat yaşaya bilməz. Batili çirkinlik olan paxıllıq həqiqətən qabiliyyətin yoxluğunu göstərir. Çünki hünərli adam əziz vaxtını bu murdar xasiyyətə sərf etməyə heyfi gələr, öz istedadına görə çalışar... Lakin hünərsiz öz istedadına inanmadığı üçün paxıllıq etməyə başlar və xalqın nemətinin puç olmağını istər."

Həyati müşahidələr göstərir ki, kim qəlbən elmlə, namuslu əməklə, halal zəhmətlə məşğul olursa, onun fitrətində güclü humanizm hissləri, xeyirxahlıq əməlləri baş qaldırır. Həmin insanlarda başqalarının əməyinə də hörmət və qibtə hissləri yaranır. Çünki onların nəfsində yaxşılıqlardan həzz almaq xüsusiyyətləri formalaşmışdır. Tənbəllik paxıllıqla yanaşıdır. Əgər tənbəl də zəhmətə qatlaşdırsa əməyindən fayda götürər, həzz alar, onun qəlbində paxıllığa yer qalmaz. Tənbəl və bacarıqsız adamlar isə qeybət qırmaqla məşğul olduğundan elələrində paxılıq hissi gündən-günə güclənir.

Hər bir xalqın müdrik fikirləri ilk növbədə onun şifahi xalq ədəbiyyatı nümunələrində öz poetik əksini tapır. Atalar sözlərində ulu əcdadlarımızın əsrlər boyu cilalanmış qısa, lakin dərin məna ifadə edən ideyaları verilmişdir. Zəhmətkeş insanların arzu və istəkləri parlaq şəkildə ifadə olunmuş folklor nümunələrində insanlığa yad olan mənəvi eybəcərliklər kəskin tənqid olunur. Atalar sözündə deyilir: "Paxıl böhtançı olar". Böhtançılar namuslu adamlara şər atmaqdan çəkinmir, iftira söyləməkdən utanmırlar. Onların bu cür hərəkətləri çox vaxt vicdanlı adamların mənəvi sarsıntılarına səbəb olur, neçə-neçə pak ürəyə xal salır, haradasa işin ahəngini pozur.

Təxminən iyirmi il əvvəl baş verən bir hadisə yadıma düşdü. Qonşu kəndlərin birində İ. adlı birisi paxıllıq, gözügötürməməzlik xəstəliyinə tutulmuşdur. Bu adam həmkəndliləri barədə yuxarı təşkilatlara böhtan xarakterli imzasız (bəzən də başqalarının imzası ilə) şikayət ərizələri göndərirdi. Dəfələrlə komissiya gəlmişdi, yoxlamışdılar, faktlar təsdiq olunmurdu. Paxıllıq hissi bu adamın qəlbinə o qədər hakim kəsilmişdi ki, axırda doğma dayısı Böyük Vətən müharibəsi veteranının guya qanunsuz ev tikməsi barədə yuxarı təşki-

latlara imzasız məktub yazmışdı. Ancaq bu dəfə yaman ilişmişdi, başqasına qazdığı quyuya özü düşmüşdü", xəttini tanımışdılar və ekspertiza bu faktı təsdiq etmişdi. Cinayət cəzasız qalmır və həmin şəxsi müəyyən müddətə azadlıqdan məhrum etdilər.

Dünyanın söz sərrafları, görkəmli şair və yazıçılar öz əsərlərində mənəvi eybəcərlikləri həmişə ifşa etmiş, insanları düz yola səsləmiş, onların qəlbində xoş duyğular, pak hisslər oyatmağa çalışmışlar. XX əsrin ən qüdrətli sənətkarlarından biri, Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı, avar xalqının böyük oğlu Rəsul Həmzətov paxılları xarakterizə edərək şerlərinin birində yazır:

*Birinin şöhrəti ona göz dağı,*
*Ən böyük zərbədir, ən dərin məzar.*
*Ürək paxıllığın olsa dustağı,*
*Doğma qardaşa da böhtanlar yazar.*
*Dostlar, ayılın ki, əzəldən sizə,*
*Hökmü məlum olsun o fəlakətin.*
*Girsə bircə dəfə ürəyinizə*
*Ondan xilas olmaq çətindir, çətin.*

Aqil babalarımız el-obanın sevincinə sevinmiş, qəm payından qəm alıblar. Çətin gündə bir-birinə həyan, dayaq, kömək olublar. Qarşılıqlı inam hissi onları yaşatmış, ən çətin anlarda sarsılmağa qoymamışdır.

Mənəvi evbəcərliklərə qarşı mübarizə hamımızın vətəndaşlıq borcudur. Tərbiyə prosesində müsbət nümunələrdən istifadəyə geniş yer veririk. Lakin yaddan çıxarmayaq ki, insan mənəviyyatına zərbə vuran mənfiliklər haqqında susmaq, yeni-yeni nöqsanların baş verməsi deməkdir. Ona görə də lovğalıq, xudbinlik, paxıllıq, laqeydlik və s. barədə söhbət açmaqdan çəkinmək lazım deyil. Bu mövzularda mədəni-maarif müəssisələrində, təlim-tərbiyə ocaqlarında düşünülmüş şəkildə müzakirə açmağımızın bütövlükdə cəmiyyətimizin mənəvi tərbiyəsində əhəmiyyətli rol oynayacağı şəksizdir.

***Hacı Bayram,***
***Anzolu kənd əsas məktəbinin ali kateqoriyalı müəllimi, "XXI əsrin tanınmış maarifçisi" Beynəlxalq Diplomun laureatı.***

Lerik